# Orta əsr Azərbaycan şairləri xalçaçılıq haqqında



**Şirin Bünyadova**
*BDU-nun professoru, tarix elmləri doktoru*
*e-mail: shirin_bunyad@mail.ru*

Açar sözlər: *orta əsrlər, Azərbaycan, şairlər, xalça məmulatları.*





Etnoqrafiya elmində sənətkarlıq sahələrinin araşdırılması mühüm əhəmiyyət kəsb edir. Təqdim olunan bu məqalə orta əsrlərdə yaşayıb yaratmış görkəmli Azərbaycan şairlərinin məişətdə xüsusi yeri olan xalçalar və xalça məmulatları haqqında verdikləri məlumatların təhlilinə həsr olunmuşdur.

Orta əsr şairlərinin yaradıcılığında xalqımızın çoxəsrlik xalça sənəti haqqında xatırlatmaların olması etnoqrafiya elmi nöqteyi-nəzərdən böyük maraq kəsb edir. Belə ki, bu şairlərin əsərlərində toxuculuqla, boyakarlıqla, xüsusilə də xalçaçılıqla əlaqədar məlumatların olması, bu sahəyə dair tədqiqatlar zamanı onların yaradıcılığından yardımçı mənbə kimi istifadəyə imkan verir. Məqsədimiz həmin şairlərin əsərlərində sənətkarlığın bu sahəsi haqqında rast gəldiyimiz fikirləri bir yerə toplayıb ardıcıllıqla təqdim etmək və digər mənbələrlə müqayisəli şəkildə təhlil aparmaqdır.

Məlumdur ki, dünyada şöhrət qazanmış Azərbaycan xalçaları xammalı, bəzəyi və toxunma üsullarına görə fərqlənmişdir. Xalçaların yüksək keyfiyyətə malik olması məişətdə onlara olan tələbatı xeyli gücləndirmişdir. Ornament müxtəlifliyi, füsünkar rəng çalarları və özünəməxsusluq Azərbaycan xalçasına xas olan cəhətlərdir. Xalçalar sadəcə bir əl işi deyil; onlarda xalqın məişəti, adət və ənənələrindən qaynaqlanan xüsusiyyətlər, eləcə də toxucuların əhval-ruhiyyəsi öz əksini tapır. Toxunduqları yerlərin adları ilə fərqləndirilən Azərbaycan xalçaları müxtəlifliyi ilə seçilir. Onlar istifadə məqsədlərinə görə də fərqlənirlər.

XII əsrdə Azərbaycanın iqtisadi həyatındakı dirçəliş şəhərlərin böyüməsi, sənətkarlığın inkişafı və ticarət əlaqələrinin genişlənməsi ilə müşayiət olunmuşdur. Bu inkişaf ölkənin siyasi və ictimai həyatına da sirayət etmişdi. Azərbaycanın böyük karvan yolları üzərində yerləşməsi onun Yaxın və Uzaq Şərqlə yanaşı, eyni zamanda Avropanın da bir sıra ölkələri ilə ticarət əlaqələrini zəruri etmişdi. Buraya müxtəlif yerlərdən - Hindistandan, Çindən, Misirdən, Avropadan tacirlər gəlirdilər. Burada müxtəlif məhsulların satış-yarmarkaları təşkil olunurdu. Bu da, öz növbəsində, sənətkarlıq sahələrinin genişlənməsinə və tərəqqisinə kömək edirdi. Azərbaycanın Naxçıvan, Gəncə, Təbriz, Şamaxı, Beyləqan və s. kimi şəhərləri sənətkarlıq, ticarət mərkəzlərinə çevrilmişdilər.

Və bu inkişaf özünü digər sənət növləri ilə yanaşı, xalçaçılıqda da büruzə verirdi. Xalçaçılıqda olan yeniliklər (tədqiq etdiyimiz dövrdə) ornamentlərdə və təsvirlərdə daha aydın şəkildədir. Bu xüsusda bütövlükdə XII-XIII əsrlərdə toxunan xalca və xalça məmulatlarının ornamentlərinin özünəməxsusluğu haqqında görkəmli alim Rasim Əfəndinin aşağıdakı fikri maraq doğurur: «XII -XIII əsrlərdə sənət nümunələrimizin bədii tərtibatında daha çox həndəsi, stilizə edilmiş nəbati ornament motivlərindən, insan və fantastik heyvan təsvirlərindən istifadə edilmişdir. Lakin bunlar daha keçmiş dövrün sənət nümunələri üzərində rast gəlinən bəzəklər kimi lakonik, monumental bir səpkidə deyil, xırdalanmış şəkildə təsvir olunurdu. XIV əsrin sonu - XV əsrin əvvəllərindən başlayaraq sənət nümunələrimizin üzərində nisbətən real səpkidə işlənmiş nəbati bəzəklərin üstün gəldiyini görürük. Yerli mühitə, onun əhalisinin zövqünə uyğun gələn ornament motivləri və kompozisiya priyomları bundan sonra sənət nümunələrimizin ayrılmaz bir hissəsinə çevrilir. XV əsrdən başlayaraq XII-XIII əsrlərin ornament



Məfrəş. Yun. Xovsuz. 128x60x59. XIX əsrin sonları. Səfikürd kəndi, Goranboy rayonu, Azərbaycan.

səpkisinə xas olan qrafik üslub bütünlüklə aradan çıxır və boyakarlıq sənətini xatırladan yeni bədii üslubla əvəz olunur. Beləliklə, XV əsrin axırlarında el sənətlərimizin bədii tərtibatında yeni bir bədii üslubun gündən-günə inkişaf edərək artdığının şahidi oluruq» (3, s.32). Müəllif bu fikri müxtəlif sənət nümunələri əsasında söyləmişdir.

Azərbaycan klassiklərinin əsərlərində toxuculuq və xalçaçılıq sənəti haqqında müəyyən qədər məlumatlar vardır. Şair və mütəfəkkirlərimiz öz əsərlərində bu sənət növünə yer verməyi unutmamışlar. Yeri gəldikcə xalça və onun müxtəlif növləri barədə məlumat vermişlər.

Xovlu xalçanın «miqrazi» və ya «qayçi» növü haqqında hələ XI əsr şairi Qətran Təbrizi məlumat vermişdir. Bu da xalçaçılıqda istifadə olunan alətlərdən biri - qayçıların adı ilə bağlı idi (1, s.9). Xovsuz xalça növü olan "məxfur" haqqında isə hələ ərəb müəllifi əl-Müqəddəsi bəhs etmişdir (1, s.17). L.Kərimovun fikrincə, Q.Təbrizinin də yaradıcılığında yer alan «dinari» adı ilə tanınan məişət əşyası xovsuz xalçanın bir növüdür (2, s.19). Orta əsrlərdə sənətkarlığın müxtəlif sahələrinin inkişafı Q.Təbrizinin də əsərlərində öz təsdiqini tapmışdır. Xüsusən xalçaçılığın mövcudluğu "əriş" və "arğac" sözləri ilə təsdiqlənir (21, s.285).

Xaqani Şirvaninin əsərlərində xalçanın, palazın, fərşin və palanın adları çəkilmişdir (4, s.91; 127; 179; 205). Qeyd edək ki, palazın əsas xüsusiyyəti, xalçadan fərqli olaraq, onun hər iki tərəfindən istifadə olunmasıdır. Palazın to-

Heybə. Yun. Xovsuz. 30x50. XX əsrin əvvəlləri. Udullu kəndi, Hacıqabul rayonu, Azərbaycan.





xunması nisbətən asandır. Onlar əsasən zolaqlı toxunuşa malik olurlar. Lakin içərilərində naxışlarına və rənginə görə fərqlənənlər də vardır. El bir yerdən digərinə köç edəndə palaz əsas məişət ləvazimatı olmuşdur. Azərbaycanın müxtəlif bölgələrində tarixən çeşidli palazlar toxunmuşdur. L.Kərimov göstərir ki, Azərbaycanda, xüsusən Şirvan ərazisində palazlar adətən yun və pambıqdan hazırlanırdı, Şamaxıda isə onlar ipək və ya ipəklə yun qarışığından xüsusi sifarişlə istehsal olunurdu (2, s.75). Bu fakt qədim ənənələr üzərində püxtələşən xalçaçıların fəaliyyət prosesindən söz açır. Qadınlar uşaq yaşlarından qızlara bu sənətin incəliklərini öyrədirdilər.

Nizami Gəncəvinin əsərlərində xalçaçılıq sənəti ilə bağlı məsələlər də araşdırılmışdır (15, s.72-79). Sənətkarlığa xüsusi rəğbəti ilə fərqlənən Nizami Gəncəvinin «Xəmsə»sinə daxil olan əsərlərində müxtəlif peşələrlə bərabər, xalçaçılıq, xalça və onunla bağlı olan digər məmulatların da adlarına rast gəlmək mümkündür (5, s.60-61). Belə məlumatların olması adları çəkilən xalçaçılıq nümunələrinin xalqın məişətində tutduğu önəmli yeri göstərmək baxımından çox əhəmiyyətlidir. Ümumiyyətlə, orta əsr şairlərinin, mütəfəkkirlərinin təsvir etdiyi hadisələr zaman və məkan baxımından fərqli olsa belə, müəlliflər öz təsvirlərində doğma xalqının həyat tərzini işıqlandırmağa çalışmışlar. Gündəlik həyatda gördüklərini və sezdiklərini canlandırmışlar. Bu təsvirlər məişətdə istifadə edilən xalçaçılıq məmulatlarına da aiddir.

Nizami Gəncəvinin xalçaçılığa dair məlumatlarına və toxuma prosesi ilə bağlı maraq doğuran fikirlərinə onun əsərlərində tez-tez rast gəlinir. Məsələn, şair «Xosrov və Şirin» poemasında yazır:

*"Bir tük qar yağan kimi qanadımız tökülür,*
*Hamımız heyvanların yununa pənah aparırıq"*
*(6, s.343).*

Göründüyü kimi, şair burada məişətdə heyvanların yunundan müxtəlif məqsədlərlə geniş istifadə olunduğunu göstərmişdir. Belə ki, yundan yorğan, döşək, xeyli sayda toxuculuq məmulatları hazırlanırdı. N.Gəncəvinin yaradıcılığında xalçatoxuma prosesi ilə bağlı əvvəlcə yunun ipə çevrilməsini, yunun əyirilməsində cəhrənin istifadə qaydasını təsvir etməsi maraq doğurur:

*"Qarı arvadın dolandırdığı o cəhrə ilə*
*Dolanan çərxi müqayisə edə bilərsən.*
*Hərçənd ki, onu saz görərsən,*
*İlk dəfə fırlatmasan fırlanmaz.*
*Onu bilicinin əli fırlatsa,*
*O fırlanma bir neçə saat davam edər"*
*(6, s.28).*

Cəhrə toxuculuqda istifadə olunan, ipin əyrilməsi üçün nəzərdə tutulan əyirici alətdir. Şairin yaradıcılığında toxunma prosesindəki "əriş" və "arğac" sözlərinə də rast gəlirik. Arğac sapları əriş saplarının arasından keçirilir. Qeyd edək ki, arğac məmulatın eni istiqamətində bir-birinə paralel olan saplar, əriş isə perpendikulyar saplardır. Bu barədə Xaqani Şirvani deyir:

*"Can evimdə əzəl şagirdi durar,*
*İplik əyirərək, arğaclar qurar"* (4, s.24).

Nizami qeyd edir ki, «yerə döşənən hər bir palaz xalça olmaz» (6, s.208). Burada palazla xalçanın fərqli olduğu vurğulanır.

Orta əsr müəlliflərinin əsərlərində adətən adlarını çəkdikləri xalçaçılıq nümunələrinin rəng çalarları, kompozisiyası barədə ətraflı məlumata



Sumax. Yun. Xovsuz. 203x132. XIX əsrin sonu. Xuray kəndi, Qusar rayonu, Azərbaycan.

rast gəlmək mümkün deyildir. Bu mənada, N.Gəncəvinin «Xosrov və Şirin» əsərində ipəkdən toxunan fərşin gül rəngində olması haqqında verilən təsvir istisnalıq təşkil edir. Şair yazır ki,

*"Şah o gül rəngli ipək fərşin üzərindən*
*Atı sürüb qəsrə sarı yaxınlaşdı" (6, s.234).*

Müəllif "gül rəngli ipək fərş" deyərkən, çox güman ki, qırmızı rəngi nəzərdə tutur.

Nizaminin «İsgəndərnamə» poemasında Nüşabənin dəbdəbəli sarayında qiymətli xalı döşənməsini təsvir etməsi orta əsrlərdə xalçaçılığın məişətdə mühüm yer tutduğunu göstərir:

*"Şəhanə sarayı çox ucadır,*
*İçində qiymətli xalça salınmışdır" (7, s.202).*

Burada şair vurğulamağa çalışır ki, saray xalçası daha böyük həcmlidir. Bu da onun dəyərinə birbaşa təsir edir. Onu da qeyd edək ki, bütün dövrlərdə saray üçün sifariş olunan əşyalar keyfiyyət baxımından daha yüksək olmuşdur. Şair «Xosrov və Şirin» əsərində yazır:



Xurcun. Yun. Xovsuz. 112x36. 1933-cü il. Qobu kəndi, Abşeron rayonu, Azərbaycan.



Xurcun. Yun. Xovsuz.116x38. XX əsrin əvvəlləri. Yuxarı Salahlı kəndi, Qazax rayonu, Azərbaycan.

*"Gəbədən, kilimdən yol üstündə*
*Bir meydan böyüklükdə xalı döşədi" (6, s.233).*

Məlum olduğu kimi, hələ qədim zamanlardan bəri Azərbaycanda gəbə, kilim, sumax, vərni, zili, palaz, çul, çuval, məfrəş, xurcun, heybə toxunurdu. Göstərilən bütün bu məmulatların əksəriyyətinin adlarına N.Gəncəvinin əsərlərində rast gəlməyimiz təsadüfi deyildir. Daha çox fərş, gəbə, palaz, çul, çuval, xalı, heybə və s. adlarına rast gəlirik. Məsələn, şair «Xosrov və Şirin» əsərində Xosrovun ov səhnəsini təsvir edərkən yazır: "Min dəvə içi gözəl bəzək şeyləri ilə dolu olan ipək toxunuşlu məfrəşlərlə yüklənmişdir. Şair «Sirlər xəzinəsi» poemasında isə üzərində namaz qılmaq üçün istifadə edilən "səccadə" adlı kiçik bir xalça növünün adını çəkir (8, s.75).

Şair «Leyli və Məcnun» poemasında yazır:

*"Heybəsindən yaxşı paltar çıxartdı,*
*Təpədən dırnağa qədər onu örtdü" (9, s.143).*

«Yeddi gözəl» əsərində isə yazır:

*"Ev sahibi seçmə döşəmələri,*
*Rum parçaları, nəfis Çin (ipəkləri)*
*Fərş - fərş gözəl xalılar -*
*Ki, onların parıltısından ürək və könüllər açılırdı -*
*Şahın xuraman xətl atının ayağı altına atdı"*
*(10, s.102).*

«Xosrov və Şirin» poemasında çuval haqqında belə deyilir:

*"Diri ikən əhvalımız pərişandır,*
*Çünki vəhşi qurdlarla bir çuvaldayıq" (6, s.342).*

Aydın məsələdir ki, usta hər bir xalçanın harada və nə məqsədlə istifadə olunacağını bilməlidir. Çünki toxunuş zamanı o bunları nəzərə almalıdır. Burada xalçanın ölçüsü ilə yanaşı, naxışları və bəzək üsulları da mütləq nəzərə alınmalıdır. Belə ki, xalçalar böyük sarayların döşəməsini bəzəyirsə, onun ölçüləri də böyük olmalıdır.

Xalçaçılar öz duyğu və hisslərini naxışlara köçürürdülər. Xalça naxışlarında və bəzəklərində xalq folklor nümunələrindən də nişanələr mövcuddur. Məsələn, zərgərlik necə zərif və incə bir iş hesab olunursa, xalçalarda da zərgin əməyin bəhrəsi açıq sezilir. Burada hər ilmənin öz yeri olmalıdır. Toxunuşun özündə bir qaydanın hökm sürdüyü aydındır. Hər bir naxış müəyyən qaydaya əsasən toxunur, əks təqdirdə cizgidən kənara çıxma toxunuşda bir yanlışlıq





Xalça toxunuşunda istifadə olunan alətlər.

olduğunu ortaya cıxara bilər (20, s.311). Bu xüsusda Nizami «Leyli və Məcnun» əsərində yazır ki,

*"Hər şeydə ki, tarazlıq əlaməti var,*
*Bir ustadın varlığının şahididir" (9, s.29).*

Xalçaçılıq məmulatlarının məişətdəki yeri haqqında N.Gəncəvi «Yeddi gözəl» əsərində yazır:

*"Taxtı qurub fərşi döşədilər" (10, s.137).*

«İsgəndərnamə»də isə deyilir:

*"Gavə bayrağından uca bir bayraq olaraq,*
*Mahçasına mavi ipək çəkdi,*
*Sənubər sütunu - əlli əriş,*
*Onu bəzəklərlə bəzəmişdilər" (7, s.122).*

Buradan məlum olur ki, ipəkdən hazırlanan bayrağın üzərində də bəzəklər olur.

Azərbaycanda kisə toxunması da mövcud olub. Bu əşyanın adına Xaqani Şirvaninin yaradıcılığında rast gəlirik:

*"Hər kim qızıl yığıb töksə kisəyə*
*Kisə tək boğazı keçər ilməyə" (4, s.21).*

Məhsəti Gəncəvi öz rübailərində yun əyirən oğlandan bəhs etmişdir (14, s.54). O eyni zamanda "canamaz"ın adını çəkmişdir (14, s.20). Müsəlmanların namaz qılmaq üçün istifadə etdikləri xüsusi şəkildə tikilib hazırlanan dördkünc formalı parçaya "canamaz" deyilir. Eynəlqüzat Miyanəçi həsir məmulatından bəhs edir (11, s.108). Mustafa Zərir yazır ki, «üzərində döşəgi dibac idi» (12, s.245). Qazi Bürhanəddin çuvalın və səccadənin (namaz xalçası) adlarını sadalamışdır (16, s.431, 651). Marağalı Əhvədi kilim xalça növünün adını çəkmişdir (13, s.210). Qul Əlinin əsərində orta əsrlərdə istifadə olunan müxtəlif məişət əşyaları sırasında zənbil, həririziba döşəklər, palaz, fərş, çuval, arqan (kəndir, örkən), eyni məna kəsb eyləyən saçin (ip, kəndir) və s.-nin adları qeyd olunmuşdur (18, s.21, 29, 64). Bütün bu adları çəkilən əşyaların olması onların məişətdəki təyinatı ilə bərabər, eyni zamanda sənətkarlığın bir sahəsi kimi toxuculuğun da varlığının təsdiqi kimi gözlərimiz önündə canlanır.

Aşıq Miskin Abdalın yaradıcılığında da xalçaçılıqdan bəhs olunmuşdur. O, palaz, kilim, xurcun və heybə kimi xalçalardan və xalça məmulatarından bəhs etməklə yanaşı, həm də əhalinin istifadə etdiyi yun məmulatlarının adlarını xatırladır. Eyni zamanda boyaqçılıq sənəti, toxuculuqda tətbiq olunan alət və vasitələr haqqında təsəvvür yarada bilir. Aşıq belə deyir:

*"Bürünmüsən zər-zərbafa, altuna,*
*Bəzək-ziynət verər xuba, xatuna.*
*Sən yola çıx, ayağının altına,*
*Mən döşəyim, xalça-palaz, kilim, gəl. (17, 85).*

Aşıq fərş döşəli ağ otaqlar barədə söz açmışdır (19, s.75). Onun yaradıcılığında «Xorasan xalısı» barədə də xatırlatma vardır (19, s.107). Bu da xalçaların orta əsrlərə qədər də ticari məqsədlər üçün istehsal olunduğunu söyləməyə əsas verir.

Beləliklə, orta əsr şairlərinin əsərlərində mövcud olan etnoqrafik baxımdan olduqca dəyərli təsvirlər bəhs olunan dövrdə istifadə olunan xalça məmulatları barədə müəyyən təsəvvür yaradır. Bu fikirlər Azərbaycanda xalçaçılıq sənətinin qədim olduğunu söyləməyə əsas verir. Xüsusən orta əsrlərdə sənətkarlığın bir sahəsi kimi toxuculuğun və xalçaçılığın yüksək inkişaf etdiyini digər materiallarla yanaşı, şairlərimizin əsərləri ilə də təsdiqləmək mümkündür.



Xalça. Yün. Xovlu. 360x207. XIX əsrin sonları.
Zeyid kəndi, Quba rayonu, Azərbaycan.



## Ədəbiyyat:


1. Керимов Л. Азербайджанский ковер. 2-й т. Баку: Гянджлик, 1983, 242 с.
2. Керимов Л. Азербайджанский ковер. 3-й т. Баку: Гянджлик, 1983, 304 с.+144
3. Rasim Əfəndi. Azərbaycan dekorativ - tətbiqi sənətləri (orta əsrlər). Bakı: İşıq, 1976, 190 s.
4. Əfzələddin Xaqani. Seçilmiş əsərləri. Bakı: EA nəşr, 1956, 477 s.
5. Bünyadova Ş. Nizami və etnoqrafiya. Bakı: Elm, 1992, 156 s.
6. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı: Elm, 1981, 374 s.
7. Nizami Gəncəvi. İskəndərnamə. Bakı: Elm, 1983, 650 s.
8. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı: Elm, 1981, 247 s.
9. Nizami Gəncəvi. Leyli və Məcnun. Bakı: Elm, 1981, 290 s.
10. Nizami Gəncəvi. Yeddi gözəl. Bakı: Elm, 1983, 360 s.
11. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə. 2 c. Bakı: Elm, 1989, 424 s.
12. Qəhrəmanov C, Xəlilov Ş. Mustafa Zərir. Yusif və Züleyxa. Bakı: Elm, 1991, 312 s.
13. Azərbaycan klassik ədəbiyyatı kitabxanası 20-cilddə. (XIII-XVI əsrlər) 3 cild. Bakı: Elm, 1989, 544 s.
14. Gəncəvi M. Rübailər. Bakı: Azərnəşr, 1961, 68 s.
15. Bünyadova Ş. Nizami Gəncəvinin əsərlərində Azərbaycan xalçaçılığının əksi. Azərbaycan arxeologiyası. Xəzər Universiteti. № 1-2. 2002, s.72-79
16. Bürhanəddin Q. Divan. Bakı: Azərnəşr, 1988, 656 s.
17. Misgin Abdal. (toplayanı, tərtib edəni, ön söz, qeyd və izahların müəllifi H. İsmayılovdur.) B. Səda, 2001, 287 s.
18. Qul Əli. Qisseyi-Yusif. Bakı: Azərnəşr, 1995, 183 s.
19. Qurbani. Əsərləri (tərtib edən Q.Kazımov) Bakı: Şərq-Qərb, 2006, 232 s.
20. Bünyadova Ş. Azərbaycanın təsərrüfatı və maddi mədəniyyəti. XII-XVI əsrlər. Bakı: Elm, 2007, 360 s.
21. Qətran Təbrizi. Divan. Bakı: AZ. SSR EA nəşr., 1967, 440 s.


**Shirin Bunyadova**
*doctor of historical sciences,*
*professor*

**Middle Ages azerbaijani poets on carpet weaving**

**Key words:** *Middle Ages, Azerbaijan, poets, carpet products*

**Summary**

For centuries Azerbaijan has been famous for its carpets. In the course of the ages-long history of azerbaijani people have created remarkable works of material culture. Carpets made by our masters, are distinguished by great diversity, richness and intense patterns.

The article presents the details of medieval Azerbaijani poet of the rugs. The significance of these data with large ethnographic point of view. Because, works of poets in the Middle Ages as an auxiliary power make it possible to learn about the craft of carpet weaving in particular. Their works can be found the names of rugs like khaly, mafrash, kilim, palas, chul, heybe and etc.

Carpets were of great importance in the life of the Azerbaijan people. These products are used not only sedentary and nomadic tribes. In each house is required to have carpets. This proved skillfulness women. Women with childhood taught her girls to the craft.

**Ширин Бунядова**
*доктор исторический наук,*
*профессор*

**Средневековые азербайджанские поэты о ковроткачестве**

**Ключевые слова:** *средние века, Азербайджан, поэты, ковровые изделия*

**Резюме**

Азербайджан испокон веков славится своими коврами. На протяжении своей многовековой истории азербайджанский народ создал замечательные образцы материальной культуры. Ковровые изделия, изготовленные нашими мастерами, отличались большим разнообразием, богатством и насыщенностью орнаментов. В статье излагаются сведения средневековых азербайджанских поэтов о ковровых изделиях. Значимость этих сведений велика с этнографической точки зрения. Потому что произведения поэтов средневековья как вспомогательный источник дают возможность узнать о ремесле, в частности, о ковроткачестве. В их произведениях можно найти названия ковровых изделий, такие как халы, мафраш, килим, палас, чул, хейбэ и т.д. Ковровые изделия имели большое значение в быту азербайджанского народа. Эти изделия использовали не только оседлые, но и кочевые племена. В каждом доме обязательно были ковровые изделия. Это доказывало умелость женщин. Женщины с детства обучали своих девочек этому ремеслу.